# DÜŞÜNCƏ

## «XUDAFƏRİN» MƏNƏVİ KÖRPÜYƏ ÇEVRİLİR

N.M.XUDİYEV

XXI əsrin əvvəlləri Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın mənəvi həyatında böyük oyanışlarla yadda qalır. Xalqın ictimai şüurunun oyanmasında, milli-mənəvi dəyərlərə sahiblik haqqının dərk olunmasında, maarif və mədəniyyətin kütləviləşməsində ən öncül xidmət vasitəsi olan yeni jurnal – «Xudafərin» işıq üzü gördü. Gənc və istedadlı qələm sahibi, tədqiqatçı Hüseyn Şərqinin «Varlıq»dan sonra yaratdığı ikinci milli dərgimizin çap olunma xəbəri nədənsə mənə Şərqdə ilk milli mətbuatın əsasını qoymuş (1875, «Əkinçi»), bir vaxtlar xarici və daxili təzyiqlərə ürək ağrısı ilə dözüb xalqı maarif işığı ilə, gələcəyə aparmaq amalı ilə mübarizə aparan görkəmli maarifçi-demokrat Həsən bəy Zərdabinin cəhalət aləmində qeyri-bərabər mübarizəsini yada saldı.

«Əkinçi»nin nəşri əleyhinə çıxan qaraguruhçu Həsən Qoca Hadinin həcvini oxuyub əsəbləşən H.B.Zərdabi yazırdı: «Fikrim budur ki, bizim Zərdab kəndində Qarabağın sərhəddində bir daş qoydurub onun üstə zikr olan həcvi tamam qazdıram ki, gələcəkdə bizim övladlar o yadigara baxıb bilsinlər mən bu zəhmət ilə milləti-islamı qəflətdən ayıltmaq istəyən vaxtda necə nadanlara rast gəlmişəm» («Əkinçi» qəz. 1877, №8).

Lakin bu gün fərq Cənublu soydaşlarımızın anadilli mətbuata təşnəliyində, həcvgu Həsən Qoca Hadi kimi nadanların əvəzinə milli ideyaları dəstəkləyənlərin milyonlarla artmasındadır.

Cəlil Məmmədquluzadə yazırdı ki, «Molla Nəsrəddin»i zəmanə özü yaratdı. İranda bu günkü mətbuat bolluğu şəraitində yenicə çapa başlayan «Xudafərin» jurnalı da regiondakı müasir mülayim ictimai-siyasi şəraitdən, demokratik ab-havadan, dünyaya inteqrasiya istəklərindən yarandı. Böyük maarifçi-demokrat H.B.Zərdabinin XIX əsrdə milli mətbuat qarşısında qoyduğu ideyaların Cənubi Azərbaycanda çiçəklənməsinə xidmət edən «Xudafərin» də maarifçiliyi fəaliyyətinin əsası sayır.

Kiçik bir yaradıcı heyətlə böyük tarixi missiyanı milli dil, ədəbi dil, təhsil, tarixi-etnik mənsubiyyət kimi problemlərin çözülməsinə xidmət göstərməyi qarşısına məqsəd qoyan «Xudafərin» hər şeydən əvvəl oxucuların fəallığına arxalanır. İlk sayında jurnalın əsas fəaliyyət istiqamətini, ideya və mövzularını açıqlayan baş redaktor Hüseyn Şərqi bu dərginin xalqın əsl tribunası, arzu, düşüncə, fikir ortağı olacağına inanır. O istəyir ki, bu vaxta

kimi müxtəlif mətbuat orqanlarından dünyanın görkəmli ədəbi simaları olan V.Şekspirin, Şillerin, J.B.Molyerin, A.S.Puşkinin, L.N.Tolstoyun, Firdovsinin, Hafizin fikir və duyğuları, sənət haqqında düşüncələri ilə tanış olan soydaşlarımız indi də «Xudafərin» vasitəsilə türk dünyasının İ.Nəsimisi, M.Füzulisi, M.P.Vaqifi, M.Ə.Sabiri, C.Cabbarlısı, H.Cavidi, S.Vurğunu, M.H.Şəhriyarı, Ç.Aytmatovu ilə tanış olsunlar.

Milli düşüncənin, tarixin, etnoqrafiyanın və dilin bioenerjisini sıxıb canında saxlayan folklor «Xudafərin»in Cənubda ədəbi dil istiqamətli ideyalarını geniş yaymaqda mənbə olacaq. Bu istək işıq üzü görmüş iki sayda özünü qabarıq şəkildə büruzə verir. Xalq fikrinin, düşüncəsinin, müdrikliyinin ən yığcam modeli olan folklor sərhədsiz mədəniyyətimizin, dilimizin ortaq körpüsü kimi həmişə böyük önəm kəsb edir. Bakıda universitet təhsili almış Hüseyn Şərqi Azərbaycan ədəbi dilinin ümumi konturları əsasında yeni jurnal yaratmağa ən şanslı ziyalılarımızdandır. Xalqlar, ölkələr arasında yaxın vaxt ərzində ən dayanıqlı mənəvi körpüyə çevriləcək «Xudafərin»in başlıca ideyaları barədə ilk saydakı redaktor qeydlərini bilmək maraqlı olardı. Hüseyn Şərqi çoxmilyonlu soydaşlarımızla ilk görüşündə belə bir açıqlama verir: «Salam bütün vətəndaşlarıma, qələmdaşlarıma, arzu, dilək, qan qardaşlarıma, soydaşlarıma, dəyərli yurddaşlarıma, igid və qəhrəman fikirdaşlarıma… Uzun illər işıqlı sabahı gözləyərək qaranlıq gecələrin acısını yaşadıq. Yuxular çin çıxarmış kimi bizim də bir diləyimiz röya pərisi kimi qarşımızda zühur etdi… («Xudafərin»in ilk sayı 2004-cü ilin sentyabrında Tehranda 30.000 tirajla çap olunub.) Ağıllı əkinçi toxumun yaxşısın yeməz, bəlkə onu əkər. Gəlin, biz də fikir və düşüncələrimizi əkək və becərək… Bu jurnal elimizin varlığının gerçək səsidir. Bu səs nə qədər güclü və gur olarsa, bir o qədər də təsirli ola bilər».

Uğurlu başlanğıc gələcək fəaliyyətin davamlılığına əsas yaradır. Jurnalın yaradıcı heyəti bu məqsədlə görkəmli elm, mədəniyyət xadimlərindən təbrik və arzulamaları ilk sayında dərc edir. Bu təbriklər içərisində «Varlıq» jurnalının yaradıcısı Doktor Cavad Heyətin, «Azəri» jurnalının baş yazarı Behzad Behzadinin, doktor Sədiqin, ünlü yazıçı İsmayıl Hadinin arzuları böyük maraq doğurur.

Jurnal aparıcı ideyalarına ilk nömrədən geniş yer ayıraraq Güney Azərbaycanda dil tariximizin bilicisi doktor Rəhim Ruziyanın milli türkcəmiz haqqında məqaləsini dərc etmişdir. Quzey Azərbaycana həsr edilmiş bölümündə professor Nizami Xudiyev haqqında məlumatla birgə dilçi-alimin Azərbaycan ədəbi dilinin XVII əsrdən bu günə qədər inkişafına həsr olunmuş məqaləsi fars dilində çap olunmuşdur.

Xalq şairi Mirvarid Dilbazi haqqında məlumat da Güney Azərbaycanın sənət vüsətini göstərmək baxımından maraq doğurur. İlk növbədə mövzular üzrə məqalələrin düzülməsində pərakəndəlik nəzəri cəlb etsə də yazılardakı intellektual səviyyə, elmi aktuallıq, coğrafi genişlik, müəlliflərin sayı və sanbalı qürur hissi doğurur.

Yerli müəlliflərdən Firuz Rifahinin «Mirzə Cahanşah Həqiqi» haqda məqaləsi, Eloğlunun M.Füzuli poeziyası işığında yeni axtarışları, Şah İs-

mayıl Xətai, Hüseyn Arif, Kərküklü Nihad, Muğanlı Salman Dağlıdan seçmə şerlər jurnalın ilk sayını yetərincə oxunaqlı edir.

Dünyasını dəyişmiş ünli yazıçıların yaradıcılığından səhifələr vermək «Xudafərin»in diqqəti cəlb edən cəhətlərindəndir. Bu mənada görkəmli elm, sənət adamları, yazıçı və şairlərdən Səməd Behrənginin, Haşım Tərlanın, Fərman Kərimzadənin həyat və yaradıcılığına, tədqiqatlarına jurnalın səhifələrində geniş yer ayırması ədəbi qayğıdan xəbər verir. F.Kərimzadənin «Xudafərin körpüsü» romanı jurnalın I və II saylarında hissə-hissə çap olunmuşdur.

Jurnal həm də maarifçilik xidməti göstərərək dünyada baş verən təbii fəlakətlərin, bioloji dəyişmələrin, son tibbi nailiyyətlərin, elm, mədəniyyət, idman yeniliklərinin xülasəsini verir, ən geniş spektrli oxucu mühitini maraqlandıran mövzuları gündəmə gətirə bilir. Ən müxtəlif sahələrin oxucularına qapısı açıq olan «Xudafərin» ikinci sayını da oxuculara böyük təsir və sevgi doğurmaq arzularıyla nəşr edir. Bu sayda türkçülük, azərbaycançılıq istiqaməti, ədəbi dilimizin taleyi diqqət önünə çəkilir. «Azərbaycan ədəbi dilinin təşəkkülü» (N.Xudiyev), «Türk dilindən alınan sözlərin dəyişikliyi» (B.Behzadi), «Yeni tapılan əsər Kirmanlı Vəli» (Eloğlu), «Pakdəşt cinayəti» (H.Şərqi), eləcə də C.Məmmədquluzadənin azərbaycançılıq ideyaları, Mahmud Kaşğarinin «Divani-lüğət-it-türk» kitabı haqqında məqalələr dərc olunmuşdur.

Bəxtiyar Vahabzadənin, Ə.Tərzioğlunun poetik dünyası ilə tanışlıqla yanaşı, oxuculara bu sayda Türkiyədə ilk qəzeti nəşr etmiş Agah Əfəndi haqqında da məlumat almaq imkanı verir.

Şah rejimi tərəfindən türkcə kitabların yandırılma ayı noyabrı acı xatirə anına çevirən jurnal «Kitabımız-nəşriyyatımız» başlığı altında türkcə çıxmış kitabların geniş reklamını verməklə borcunu yerinə yetirir.

İlk sayları işıq üzü görən «Xudafərin»in İranda populyar olan «Azəri», «Araz», «Əsri-Azadi», «Məhde-Azadi», «Həmşəri», «Ərk kimi», mətbuat orqanlarında reklamı geniş ədəbi yaradıcılıq və ideya birliyinin yarandığından xəbər verir.

Son olaraq «Xudafərin» öz ünvanını belə xatırladır: 009921691529, İran, Tehran R.O. box 131145-147, Khudafarin@ yahoo.com

Siz də «Xudafərin»i evinizin, odanızın bir üzvü sayıb daim onu yadda saxlayın. Yazın ki, Araz üzərində fiziki keçidin adı olan «Xudafərin» əsl mənəvi körpüyə çevrilsin.